# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 2415 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 2415 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin işçilərinin say həddinin, xərclər smetasının və ştat cədvəlinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 oktyabr tarixli 357 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1326 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “20” rəqəmləri “21” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ştat cədvəli”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. “İcraçı direktor” sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| | |
|---|---|
| İcraçı direktorun müavini | 1 |

1.2.2. “Ştat vahidlərinin sayı (nəfər)” sütununun “Cəmi:” sətrində “20” rəqəmləri “21” rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 132 (Cild I) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - “Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin işçilərinin aylıq vəzifə maaşlarının cədvəli” aşağıdakı redaksiyada verilsin:

| **Sıra №-si** | **Vəzifələrin adı** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|---|
| 1. | İcraçı direktor | 2732 |
| 2. | İcraçı direktorun müavini | 2458 |
| 3. | Müşavir | 2125 |
| 4. | Baş mühasib | 2001 |
| 5. | Şöbə müdiri | 1946 |
| 6. | Baş məsləhətçi | 1732 |
| 7. | Aparıcı məsləhətçi | 1421 |
| 8. | Məsləhətçi | 1283 |
| 9. | Hüquqşünas, informasiya texnologiyaları üzrə mütəxəssis | 1104 |
| 10. | Avtomobil sürücüsü | 495 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 fevral 2024-cü il

№ 102